AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 3/2

Bakı şəhəri 28 yanvar 2015-ci il

"Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın icrası haqqında

Müstəqillik dövründə sənayenin inkişafına, ilk növbədə neft-qaz sektoruna cəlb edilən xarici investisiyalar sənayenin digər sahələrinin də yenidən canlanmasına təkan vermişdir. Azərbaycanda sənayeləşmə templəri yüksəlmiş, sənaye istehsalı üçün həyati əhəmiyyət kəsb edən enerji təminatı məsələlərinin həlli istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmiş, respublika təbii qaz və elektrik enerjisi idxalçısından ixracatçıya çevrilmiş, sənayenin infrastruktur təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmış, nəticədə sənaye yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Sənayeləşmənin yeni mərhələsində mövcud potensialdan daha səmərəli istifadə etməklə Azərbaycanın regionda güclü sənaye mərkəzinə çevrilməsini təmin etmək məqsədilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən edilmiş fəaliyyət istiqamətləri nəzərə alınmaqla, "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2014-cü il tarixli sərəncamı ilə təsdiq edilmişdir.

Dövlət Proqramında digər dövlət qurumları ilə yanaşı Azərbaycan Milli Elmlər Akademiyasının da qarşısında mühüm vəzifələr qoyulmuşdur.

Dövlət Proqramının icrası ilə əlaqədar AMEA-ya tapşırılmış vəzifələrin icrasını təmin etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın elmi bölmələrinə tapşırılsın ki:
   1.1. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər planının müvafiq bəndlərilə (əlavə olunur) AMEA-ya tapşırılmış vəzifələrə uyğun olaraq bəndlər üzrə icraçıları müəyyənləşdirsinlər;
   1.2. tabeliklərində olan elmi müəssisələrin tapşırıqları vaxtında icra etmələrinə nəzarəti həyata keçirsinlər;

1.3. hesabat dövrü ərzində görülmüş işlər haqqında yarımillik və illik məlumatların ümumiləşdirilərək AMEA Rəyasət Heyəti aparatının İnnovasiya şöbəsinə təqdim olunmasını təmin etsinlər.

2. AMEA Rəyasət Heyəti aparatının İnnovasiya şöbəsinə (kənd təsərrüfatı üzrə fəlsəfə doktoru Vüqar Babayev) tapşırılsın ki, AMEA-nın elmi bölmələrinin təqdim etdikləri məlumatların müəyyən olunmuş formada tərtib olunaraq müvafiq dövlət qurumlarına təqdim olunması təmin edilsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT